# Təhsilə gedən yol bağçadan keçir



Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması istiqamətində görülən işlər böyük əhəmiyyətə malikdir. Çünki məktəbəqədər təhsil uşaqların intellektual, fiziki və psixoloji inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, onlarda mədəni keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq hisslərinin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır. Bu, bir həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur. Elə bu səbəbdən ölkənin bütün yerlərində uşaq bağçaları əsaslı təmir olunur, müasir avadanlıqlarla təchiz edilir.

Xətai rayonundakı nitq qüsurlu uşaqlar üçün 235 saylı uşaq bağçası 1983-cü ildə fəaliyyətə başlayanda ümumi uşaqlar üçün nəzərdə tutulsa da, 1991-ci ildə onun profilində bir qədər dəyişiklik edilir. Buraya nitqində qüsurlu olan uşaqlar da cəlb edilir. Hazırda 9 qrupda 88 uşaq tərbiyə olunur ki, onların da təlim-tərbiyəsi ilə 30 pedaqoji işçi məşğuldur. Böyük qrupların 10, körpə qrupların hər birində 8 uşaq tərbiyə olunur. Bağçaya təcrübəli pedaqoji işçi Səlahət Musayeva rəhbərlik edir. O, Təhsil Problemləri İnstitutunun dissertantı, məktəbəqədər təhsil kurikulumu üzrə işçi qrupunun, Yeni Azərbaycan Partiyasının üzvüdür.

Biz bağçaya 5 oktyabr—Müəllimlər Günü ərəfəsində gəlmişdik, elə söhbətimizi də müəllim əməyi, müəllim nüfuzu bu müqəddəs peşə sahiblərinə dövlət qayğısı və s. məsələlər üzərində qurmağa çalışdıq. Səlahət müəllim rəhbərlik etdiyi məktəbəqədər tərbiyə müəssisəsinin fəaliyyət istiqamətindən, onun digər bağçalardan fərqli xüsusiyyətlərindən danışdı. Qeyd etdi ki, burada sağlam uşaqlarla yanaşı, həm də nitqində müxtəlif qüsurları olan uşaqlar da tərbiyə olunur. İşin fərqli, diqqət çəkən tərəfi də elə budur. Uşaqların qəbulu Psixoloji Tibbi Pedaqoji Komissiyasının qərarına uyğun keçirilir. Mislaliya, kəkələmə, loqo-nevroz, lonome fonomotik nitq inkişafının ləngiməsi, palaliya və s. bu kimi xəstəliklərdən əziyyət çəkən uşaqlar məhz bu uşaq bağçasına qəbul edilirlər. Təhsil müəssisəsində uşaqların intellektual inkişafı üçün zəngin tibbi baza var, müasir interaktiv təlim metodlarından istifadə olunur. Onların nitqinin zehni, harmonik inkişafı istiqamətində məqsədyönlü iş aparılır. Nitq qüsuru aradan götürüldüyü təqdirdə məktəb yaşına çatmış uşaqlar məktəbə göndərilir. Nitqi tam bərpa olunmayan uşaqlar isə Psixoloji Tibbi Pedaqoji Komissiyanın qərarı ilə daha bir il bağçada qalmalı olurlar.

Bağçanın 55 və 17 saylı məktəblərlə sıx əlaqəsi var.

Məktəbəqədərki dövrdə uşaqların həyatında uşaq bağçalarının rolu olduqca böyükdür və bu dövr məsuliyyətli bir dövrdür. Bununla bağlı fikirlərini bizimlə bölüşən Səlahət müəllim bağçada keçirilən tədbir və əyləncələrin əhəmiyyətindən söz açaraq dedi: “Uşaq bağçalarında keçirilən idman bayramları, əyləncələr, bədən tərbiyəsi məşğələləri, səhər gimnastikası, asudə vaxt, bayram və idman əyləncələri, yarışlar uşaqlarda bu sahələrə aid yeni anlayışlar haqqında ilkin təsəvvürlər yaradır, onların lüğət ehtiyatını artırır. Ətraf aləmlə tanışlıq və uşaqların ətraf mühitdə gördükləri: ağaclar, otlar, çiçəklər, quşlar, həşəratlar və s. maraq dairəsini genişləndirir. Əşyalarla, müxtəlif rəngli oyuncaqlarla işləyərkən uşaqlarda ayrı-ayrı rənglər—ağ, sarı, qırmızı, göy, narıncı, yaşıl və s. haqqında ilkin təsəvvür yaranır, rəng təsəvvürü ilə yanaşı, söz ehtiyatları da çoxalır, nitqi formalaşır. Bizim məktəbəqədər tərbiyə müəssisəsində nitqində qüsuru olan uşaqlar tərbiyə olunduğundan burada iş bir qədər fərqlidir. Belə uşaqlarla fərdi qaydada işləmək, onların hər birinə xüsusi yanaşmaq lazımdır. Bizim ən ali məqsədimiz Vətənə, millətə layiqli vətəndaş yetişdirməkdən ibarətdir. Körpələr evi–uşaq bağçası 30 ildən artıqdır ki, fəaliyyət göstərir. Burada işini bilən, təcrübəli mütəxəssislər çalışır”.

Səlahət müəllim təhsilə dövlət qayğısından da danışdı. Qeyd etdi ki, ölkəmizdə təhsilə dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Ümummilli liderimiz Heydər Əliyev müəllim əməyinə həmişə yüksək qiymət vermişdir. Onun “Mən müəllim adından yüksək ad tanımıram” kəlamı müəllim əməyinə verilən böyük dəyərdir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə son illər “Ən yaxşı ümumtəhsil məktəbi”, “Ən yaxşı müəllim” müsabiqələrinin keçirilməsi müəllim əməyinə dövlətin diqqət və qayğısının təzahürüdür. Ötən dövrdə yüzlərlə müəllim fəxri ada, yüksək dövlət mükafatlarına layiq görülüb. Elm və təhsilin inkişafı istiqamətində Heydər Əliyev Fondunun fəaliyyəti də diqqətəlayiqdir.

Hər şeyin ilki, başlanğıcı olur. Elm və təhsilin banşlağıcı isə məktəbəqədər tərbiyə müəssisəsidir. Elmin, biliyin əsası uşaq bağçalarında qoyulur. Bu mənada burada çalışanların üzərinə böyük məsuliyyət düşür. Öyrətmək doğrudan da müqəddəs işdir. Bu peşəni seçənlərin ən ali mükafatları isə yetirmələrinin onlara olan dərin məhəbbəti, həyatda qazandıqları uğurlardır.

**Zümrüd QURBANQIZI,**
**“Respublika”.**